# HƏDDADİLƏRİN XÜSUSİYYƏTLƏRİ



Müəllif : Şeyx Rəbi bin Hadi əl-Mədxali
Tərcümə edən: Sahib Xasayev

*Həddadilərin Xüsusiyyətləri*

Müəllif : Şeyx Rəbi bin Hadi əl-Mədxali**

Bismillahir-Rəhmanir-Rəhim.

Həmd Allaha məxsusdur, salat və salam Allahın Rəsuluna, onun ailəsinə, səhabələrinə və onun hidayət yoluna tabe olanların üzərinə olsun.

Bundan sonra:

Yəməndəki gənclər arasında baş verən, quyruğu uzanan və qolları şaxələnərək digər ölkələrə də yayılan fitnə səbəbilə, həmçinin insanların haqqın bəyan edilməsinə, kimin haqlı, kimin xətalı olduğunu bilməyə olan böyük marağına görə bəzi məsələləri açıqlamaq zərurəti yarandı. Bu fitnələrin səbəblərindən biri də Yəməndəki bəzi elm tələbələrinin "Həddadi" mənhəcı ilə ittiham olunması idi.

Bu səbəbdən, mən bu mənhəcı (metodu) bəyan etməyə məcbur qaldım ki, bəlkə bu, haqq axtarışında olan çox sayda tələbəyə Əhli-Sünnə mənhəcı ilə Həddadi mənhəcini bir-birindən ayırmaqda aydınlıq gətirsin. Sonra, ümid edirik ki, bu addım digər məsələlərin də bəyanını davam etdirəcəyimizə dair verdiyimiz vədlə birlikdə, bu fitnənin aradan qaldırılmasına böyük ölçüdə töhfə verəcək. Bu, təcilidir və fitnəni bitirməsi üçün bir xidmətdir.

## Həddadilərin Mənhəcı:

1. Müasir Sələfi mənhəc alimlərinə nifrət etmək, onları kiçiltmək, cahillikdə və zəlalətdə ittiham etmək, onlara iftira atmaq – xüsusilə də Mədinə əhlini (alimlərini) hədəf almaq. Sonra bununla da kifayətlənməyib İbn Teymiyyə, İbn əl-Qeyyim və "ət-Təhaviyyə əqidəsi" kitabını

şərh edən İbn Əbil-İzzə qədər uzandılar; onların məqamını düşürmək və sözlərini rədd etmək üçün ətraflarında dövr edirlər.

2. Bidətə düşən hər kəsi mübtədi (bidətçi) saymaq. Onların nəzərində İbn Həcər, Seyid Qütbdən daha şiddətli və təhlükəlidir.

3. Bidətə düşən kəsi mübtədi elan etməyəni bidətçi saymaq, ona düşmənçilik etmək və ona qarşı müharibə elan etmək. Onlar üçün "filankəsdə əşarilik var" və ya "o, əşaridir" deməyin kifayət deyil. Mütləq deməlisən ki, o, "mübtədidir", yoxsa sənə qarşı müharibə, boykot və təbdi (bidətçi elan etmə) başlayacaq.

4. Bidət əhli üçün rəhmət diləməyi (Allah rəhmət eləsin deməyi) mütləq şəkildə haram saymaq. Rafizi, qədəri və cəhmi ilə xətaya düşmüş alim arasında heç bir fərq qoymamaq.

5. Əbu Hənifə, əş-Şövkani, İbn əl-Cövzi, İbn Həcər və ən-Nəvəvi kimi şəxslərə rəhmət diləyəni bidətçi saymaq.

6. Sələfilərə qarşı şiddətli düşmənçilik bəsləmək. Sələfilər dəvət yolunda nə qədər səy göstərsələr, onu müdafiə etsələr, bidətlərə, hizbiçiliyə və zəlalətlərə qarşı nə qədər mübarizə aparsalar da, onlar (həddadilər) yenə də Mədinə əhlinə və sonra Şeyx Albaniyə (Allah ona rəhmət eləsin) fokuslanırlar. Çünki o, Sələfi mənhəcının böyük alimlərindən biridir və hizbiçiləri, bidət əhlini və təəssübkeşləri susdurmaqda ən şiddətlilərindəndir. Onlardan biri mənim məclisimdə İbn Useyminin on dəfədən çox yalan danışdığını iddia etdi, mən də ona çox qəzəbləndim və onu məclisimdən qovdum. Onlar bu mövzuda kitablar yazdılar,

kasetlər yaydılar, onlara qarşı təbliğat apardılar; kitablarını, kasetlərini və təbliğatlarını yalan və iftiralarla doldurdular. Əl-Həddadın azğınlıqlarından biri də odur ki, Şeyx Albaniyə tən etmək və onu ləkələmək üçün öz xətti ilə təxminən dördyüz səhifəlik bir kitab yazıb; əgər çap olunsa, bəlkə də min səhifəyə çatar. Adını əl-Xəmis", yəni ön, arxa, mərkəz, sağ və sol qoşunu olan nəhəng ordu adlandırıb.

7. O, "İxvanul-Müslimin", Seyid Qütb və Cuheymaniyyədən çəkindirdiyini iddia edirdi, lakin biz onun bu barədə hər hansı bir əsərini, hətta hamısını bir yerdə cəm edən kiçik bir qeydini belə görmədik; halbuki "əl-Xamis" kitabı kimi kitablar yazır.

8. Həddad barəsində ğuluva (həddi aşmağa) yol vermək və onun elmdə üstünlüyünü iddia etmək. Bununla məqsədləri böyük elm adamlarını və Sələfi

mənhəcını devirmək, öz şeyxlərini isə rəqibsiz imamlıq məqamına çatdırmaqdır – necə ki, əzəmətli görünmək xəstəliyinə tutulanların ardıcılları belə edirlər. Onlar elmdə yüksək dərəcəyə çatmış filankəs və filankəs haqqında dedilər: "Onlar Əbu Abdullah əl-Həddadın və Ümmü Abdullahın qarşısında diz çökməlidirlər."

Mədinədəki və digər yerlərdəki Sələfi alimlərinə hücum çəkdilər, onları yalançılıqda ittiham etdilər: "filankəs yalançıdır, filankəs yalançıdır". Beləliklə, özlərini doğruluğu sevən və onu axtaran kimi göstərdilər. Lakin Həddadın yalanları dəlil və sübutlarla onlara bəyan edildikdə, Allah onların həqiqi mahiyyətini və gizlətdikləri fücuru (fısqı) üzə çıxardı. Onlar isə Həddada daha da bağlanmaqdan və onun barəsində ğuluva yol verməkdən başqa bir şey etmədilər.

9. Lənətləmə, kobudluq və terrorla

seçilməkləri O dərəcəyə çatdılar ki, Sələfiləri döyməklə hədələyir, hətta bəzi Sələfiləri döymək üçün əl qaldırırdılar.

10. Müəyyən şəxsləri lənətləmək. Hətta bəziləri Əbu Hənifəni lənətləyir, bəziləri isə onu təkfir edir.

Həddad düz və ya xəta olan bir sözə gəldikdə "bu zındıqlıqdır" deyir, bu da insanın gizli bir təkfirçi olduğu təəssüratını yaradır.

11. Haqqı rədd etməyə aparan təkəbbür və inadkarlıq. Digər bidət əhli ğulatlar (həddi aşanlar) kimi, Mədinə əhlinin Həddadın sələf mənhəcindən uzaqlaşdığını göstərən bütün bəyanatlarını rədd etdilər. Bu əməlləri ilə onlar İslam firqələrinin ən pislərindən, əxlaq və hizbiçilik baxımından isə ən şərli olanlarından oldular.

12. Ən çox İmam Əhmədə bağlanırdılar.

Lakin Həddadın bidət əhlinə qarşı mövqeyində İmam Əhmədə müxalif olduğu onlara sübut edildikdə, bunu inkar etdilər və bunu İmam Əhmədə nisbət edənləri ittiham etdilər. Sonra Həddad dedi: "Əgər İmam Əhməddən bu (rəy) səhihdirsə, biz onu təqlid etmirik." Onların dərdi haqqı sevmək və axtarmaq deyil, sadəcə fitnə törətmək və Sələfiləri parçalamaqdır.

Bu ifratçılıqları (tənatau) ilə yanaşı, Sələfilər onların bəzilərinin hizbiçilərlə, bəzilərinin isə fasiqlərlə əlaqələrini gördülər. Eyni zamanda onlar Sələfilərlə vuruşur və onlara qarşı şiddətli kin bəsləyirlər. Bəlkə də gizlətdikləri şər daha çoxdur; Allah onların gecə nə planlar qurduğunu daha yaxşı bilir.

Əgər Əbu əl-Həsən bizə aydın dəlillərlə sübut etsə ki, onun "həddadi" adlandırdığı kəslər bu vəsflərə malikdirlər, biz onları həddadilikdə ittiham etməkdə, hətta onlar haqqında yazıb çəkindirməklə və onları heç

bir güzəşt etmədən həddadiliyə qatmaqla cəzalandırmaqda əlimizdən gələni əsirgəməyəcəyik.
Yox, əgər bunu sübut edə bilməsə, o zaman gərək Allah Azzə və Cəlləyə tövbə etsin və bu tövbəsini açıq şəkildə elan etsin. Əks təqdirdə, biz onlara (ittiham olunanlara), onların üzərində olduqları Sələfi mənhəcinə yardım etməkdə və həm manhacı, həm də onları müdafiə etməkdə heç bir səyimizi əsirgəməyəcəyik.
Sadiq Sələfilərin üzərinə düşən vəzifə isə onlara və tutduqları mənhəcə yardım etmək, onlara və mənhəclərinə zülm edənlərin əlindən tutmaqdır. Amma ehtiyatlı olun, ehtiyatlı olun ki, sizlərdən kimsə həddadilərin düşdüyü və ya düşdükləri bəzi xətalara düşməsin. Bu, sadiqləri yalançılardan ayırmaq üçün əməli bir sınaq meydanıdır, necə ki, Uca Allah buyurur: **(Əlif, Ləm, Mim. İnsanlar elə hesab edirlər ki, təkcə: "İman gətirdik!" – demələri**

**ilə onlardan əl çəkiləcək və onlar imtahan olunmayacaqlar? Biz onlardan əvvəlkiləri də imtahandan keçirmişdik. Şübhəsiz ki, Allah düz danışanları da, yalançıları da çox yaxşı tanıyır.)** (əl-Ənkəbut, 1-3).
Kərim olan Allahdan, uca Ərşin Rəbbindən diləyirəm ki, bütün dünyadakı Sələfiləri bu imtahanda yıxılmaqdan qorusun – xüsusilə də Rəsulullahın ﷺ sünnəsinin Sələfi mənhəcı vasitəsilə üzə çıxdığı Yəmən torpaqlarında.

Müəllif

Rəbi bin Hadi əl-Mədxali
20/02/1423 hicri

**Tərcümə etdı: Sahib Xasayev**